

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər və əlavələr edilməsi haqqında

# Qərar № 122

***Bakı şəhəri, 7 avqust 2009-cu il***

«Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 aprel tarixli, 74 nömrəli Fərmanının 3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 aprel tarixli, 75 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 4 (II kitab), maddə 321; 2002-ci il, № 11, maddə 675; 2006-cı il, № 9, maddə 822) ilə təsdiq edilmiş «Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları»nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 13.1.12-ci bəndin ikinci abzasından *«və radioaktiv yüklər üçün»* sözləri çıxarılsın;

1.2. 13.2.7-ci bəndinin 7-ci yarımbəndinin dördüncü abzasından *«və Dövlət Sanitar Nəzarəti orqanları»* sözləri çıxarılsın;

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli, 207 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 11, maddə 828; 2002-ci il, № 11, maddə 675; 2003-cü il, № 6, maddə 342; 2006-cı il, № 9, maddə 822) ilə təsdiq edilmiş «Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydaları»nın 5.7.2-ci bəndində *«müvafiq müfəttişliyinin, Dövlət yanğın nəzarəti»* sözləri *«müvafiq qurumların»* sözləri ilə əvəz edilsin;

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 dekabr tarixli, 220 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 12, maddə 871; 2007-ci il, № 12, maddə 1336; 2009-cu il, № 2, maddə 144) ilə təsdiq edilmiş «Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları»nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. «Ümumi müddəalar» bölməsinin 15-ci bəndinin üçüncü və dördüncü abzaslarında ismin müvafiq hallarında *«Dövdağmədəntexnəzarət Komitəsi»*

sözləri ismin müvafiq hallarında *«Fövqəladə Hallar Nazirliyi»* sözləri ilə əvəz edilsin;

3.2. «Əsas anlayışlar» bölməsinin 4.7-ci bəndində *«daşınma şərtləri»* sözlərindən sonra *«Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmaqla»* sözləri əlavə edilsin;

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 1 iyul tarixli, 90 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 581) ilə təsdiq edilmiş «Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin;

4.1. 6.7.1-ci bəndin ikinci və üçüncü abzaslarında *«Ekologiya və Təbii Sərvətlər Nazirliyinə»* sözlərindən əvvəl *«Fövqəladə Hallar Nazirliyinə və»* sözləri əlavə edilsin;

4.2. 6.10.2-ci bəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

*«Radioloji göstəricilər müəyyənləşdirilərkən Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmalıdır.»;*

4.3. 6.10.3-cü bəndə aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

*«Radioaktiv maddələrin miqdarı barədə məlumat rübdə bir dəfədən az olmamaqla, Fövqəladə Hallar Nazirliyinə təqdim edilməlidir.»;*

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli, 136 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009-cu il, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293) ilə təsdiq edilmiş «İnzibati orqanların Təsnifatı»na aşağıdakı məzmunda 19.1.9-cu bənd əlavə edilsin və 19.1.9-cu bənd 19.1.10-cu bənd hesab edilsin:

*«19.1.9. Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi;».*

6. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***